III BÖLMƏ.
ENERJİ SEKTORUNUN İNKİŞAFI, İXRACIN TƏŞVİQİ, QARABAĞ İQTİSADİ RAYONUNUN İNKİŞAFINDA DÖVLƏT DƏSTƏYİ

UOT 338.012; 339.13.012.42

Nicat Zaur oğlu ***ƏBDÜRƏHMANOV***
Azərbaycan Kooperasiya Universitetinin doktorantı
E-mail: nicatabd@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2024.004.027

ENERJİ SEKTORUNUN LİBERALLAŞMASI VƏ BAZAR MODELİNİN YARADILMASI MƏSƏLƏLƏRİ

Xülasə

Tədqiqatın məqsədi - müasir dövrdə enerji sektorunun liberallaşması və bazar modelinin yaradılması proseslərinin araşdırılması və ümumiləşdirmələrin aparılmasıdır.

Tədqiqatın metodologiyası – formasında əsasən analiz, sintez, müqayisəli təhlil və ümumiləşdirmə metodları götürülmüşdür. Bunlarla bərabər, enerji sektorunun liberallaşdırılması problemləri üzrə araşdırmalar aparmış tədqiqatçıların elmi əsərlərinə də istinadlar edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti olaraq müasir qlobal təzyiqlər kontekstində enerji sektorunun bazar iqtisadiyyatı şərtləri əsasında inkişaf etdirilməsi üzrə islahatların aparılması üçün proqramlarının təşkili və tədbirlərin müəyyənləşdirilməsidir.

Tədqiqatın nəticələri - hazırkı dövrdə və perspektivdə məqalədə yer alan elmi müddəalardan və təkliflərdən enerji sektorunun liberallaşdırılması mexanizmlərinin hazırlanmasında istifadə etmək imkanları vardır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi baxımından qeyd edə bilərik ki, qlobal transformasiyalar şəraitində enerji sektorunun liberallaşdırılması və onun bazar modelinin yaradılması üzrə konseptual yanaşmalar qaçılmazdır və bu istiqamətlərdə islahatların aparılmasının vacibliyi, yeni fəaliyyət mexanizmlərinin hazırlanması və tətbiq edilməsinin zəruriliyi əsaslandırılmışdır. Enerji sektorunun bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdirilməsinin üstün cəhətləri verilmiş və daha səmərəli olması elmi arqumentlərlə nəzərə çatdırılmış, təkliflər və tövsiyələr hazırlanmışdır.

Açar sözlər: energetika, enerji sektoru, enerji sektorunun liberallaşdırılması, bazar modelinin yaradılması, bazar iqtisadiyyatı, enerji sektorunun bazar modeli, enerji sektorunun səmərəliliyi.

Giriş

Qlobal təzyiqlərin artdığı bir dövrdə iqtisadiyyatın müxtəlif sahələrinin mövcud mexanizmlərinin təkmilləşdirilməsi, qlobal təsirə adekvat olan fəaliyyət mexanizmlərinin və iqtisadi alətlərin hazırlanması, tətbiq edilməsi vacib şərtlərdəndir, həm də bir zərurət kimi diqqət çəkir. Xüsusilə, resursların bölüşdürülməsində olan çətinliklər, yeni resurs ehtiyatlarının kəşf edilməsi, mənimsənilməsi, təsdiqlənməsi, istismar proseslərinə əhəmiyyətli investisiyaların yatırılması kifayət qədər mürəkkəb məsələlərdəndir. Digər tərəfdən, dünyada baş verən proseslər, dünya regionları və dövlətləri arasındakı ziddiyyətlər, iqtisadi sanksiyalar enerji resurslarının sabit şəkildə dünya bazarlarına çıxarılmasını əngəlləyir və bu da enerji təchizatında ciddi problemlər üçün əsaslar yaradır.

Bunlarla bərabər, energetika hər bir ölkənin iqtisadiyyatının əsasını təşkil edən aparıcı sahələrdəndir. Buna görə də energetika sahəsinin infrastrukturu, istehsal imkanları, səmərəli şəkildə bölüşdürücü və paylayıcı şəbəkəsinin olması əsas məsələlər kimi xarakterizə olunur. Qeyd olunan

amillər baxımından dünya dövlətləri energetika sahəsinə daha çox diqqət yönəldirlər və bu sahəyə dövlət müdaxiləsi bazar iqtisadiyyatı şəraitində də qalmaqdadır. Dünyanın elə bir ölkəsi yoxdur ki, orada dövlət bu və ya digər dərəcədə energetika sektorunun işinə müdaxilə etməsin, amma bu müdaxilənin sərhədləri və ölçüsü xeyli fərqlənir. Elə ölkələr var ki, energetika sahəsini əhəmiyyətli səviyyədə liberallaşdırmağa nail ola bilmişlər və nəticədə enerji sektorunda sağlam rəqabət mühiti formalaşdıra bilmişlər. Bunun nəticəsində enerji istehsalında və onun bölüşdürülməsində daha səmərəli fəaliyyət göstərən müəssisələr və şirkətlər şəbəkəsinin yaradılması, enerji təchizatı tariflərinin əlçatanlığının təmin olunması, tariflərin (qiymətlərin) diferensiallaşması mümkün olmuşdur.

Qlobal şəraitdə enerji sektorunun liberallaşdırılması və bazar modelinin yaradılması proseslərinin tədqiqi

Qeyd edək ki, elektroenergetika sahəsinin inkişafının təmin olunması, bu sahəyə dövlət müdaxiləsinin azaldılması, özəl sektorun elektrik enerjisinin istehsalı və bölüşdürülməsi proseslərində müstəqil bazar iqtisadiyyatı subyektləri kimi fəaliyyət göstərməsi – enerji sektorunun liberallaşdırılmasının əsas şərtləri və meyarları kimi qiymətləndirilə bilər. Burada başlıca məqsəd enerji sektorunun bazar iqtisadiyyatı prinsipləri əsasında fəaliyyətinin tənzimlənməsi, enerji sahəsində itkilərin azaldılması, əhalinin və sənaye subyektlərinin elektrik enerjisinə olan tələbatının ödənilməsində alternativ xidmətlər paketinin formalaşdırılmasıdır. Buna nail olmaq üçün enerji sektorunda daha çox islahatların aparılması, dövlət statuslu iri energetika müəssisələrinin özəlləşdirilməsi tədbirlərinin görülməsi, alternativ enerji istehsalı mənbələrinin yaradılması tələb olunur. Eyni zamanda, enerji sektorunun fasiləsiz və səmərəli fəaliyyətinin təmin edilməsi tədbirləri sırasında dövlət tərəfindən verilən dotasiya və subsidiyaların yox, bazar iqtisadiyyatı şəraitində tətbiq olunan iqtisadi mexanizmlərin səmərəliliyinin artırılması yer almalıdır. Hər bir enerji sektoru subyekti bazar prinsipləri əsasında inkişaf etdikcə, enerji itkilərinin azaldılmasında, enerji istehlakçılarının daha çox cəlb edilməsində maraqlı olacaqlar və bunun üçün maksimum səmərəli iqtisadi mexanizmlərin işlənərək tətbiq edilməsinə səy göstərəcəklər. Bazar iqtisadiyyatı əsasında inkişaf edən enerji sektoru subyekti digər tərəfdən, istehlakçıların etimadını qazanmaq və uzunmüddətli əməkdaşlığın, əvvəldə qeyd etdiyimiz kimi cəlbediciliyi təmin etmək üçün daha əlverişli şərtlərlə tarif siyasəti formalaşdırmaqda, bununla yanaşı, enerji resurslarına olan qiymətlərin istehlakçıların maddi vəziyyətinə və gəlirlərinə adekvat olaraq müəyyənləşdirilməsində daha çox manevrlik qabiliyyətinə malik ola bilər.

Qeyd edək ki, enerji sektorunun inkişafında yeni tendensiyalar, məsələn, yaşıl enerji infrastrukturunun yaradılması proseslərinin sürətlənməsi baş verir. Bu sırada dövlətlər daha çox dəstək mexanizmləri tətbiq etməkdədirlər. Aparılan tədqiqatlardan belə bir nəticə diqqətimizi cəlb etmişdir ki: “Beynəlxalq təcrübədə enerji səmərəliliyinin təmin edilməsi məqsədilə hökumət tərəfindən bir sıra iqtisadi alətlərdən istifadə edilir. Bu alətlər sırasında fiskal (enerji vergiləri, vergi güzəştləri, əmlak vergisi, ƏDV və s.) alətlərdən istifadə təcrübəsi kifayət qədər geniş yayılmışdır” [1, s. 106]. Energetika sahəsində islahatlar nəticəsində bir çox problemlər üzə çıxa bilər. Buna yol verməmək üçün özəl sektor daha az kapitaltutumlu, tez bir zamanda səmərəli layihələr həyata keçirə bilər və nəticədə ölkənin enerji təhlükəsizliyi ziyan çəkməz. Amma, bunun üçün dövlət tədbirlər görməli, enerji sektorunun, bizim misalda isə energetika sahəsinin liberallaşdırılması proseslərində özəl investorları maksimum stimullaşdırmalıdır. Belə ki, özəl investorların qeyri-iqtisadi müəssisələrə və ya zərərin aradan qaldırılması üçün uzun müddət tələb edən sahələrə investisiya qoyma ehtimalı o qədər də yüksək qiymətləndirilmir. Üstəlik, sərmayələr islahatların baş tutmasını gözləyə bilməz, ancaq dövlət stimullaşdırıcı tədbirlər görərsə, bir qrup investorlar islahatlarda davamlı şəkildə, yəni sona qədər səmərəli iştirak edə bilər [12, s. 500].

Müasir dövrdə energetika sahəsində aparılan islahatlar və enerji sektorunun liberallaşdırılmasının digər mühüm məqsədlərindən biri isə enerji istehsalı və bölüşdürlməsi, son istehlakçılara çatdırılması sahəsində maksimum səmərəliliyin və müştəri məmnunluğunun təmin olunmasıdır [4]. Bunun üçün bir qrup konseptual yanaşmalar xüsusi diqqət mərkəzində saxlanılmalıdır: 1) Nəzərə almaq lazımdır ki, energetika sektoru dövlət və əhali üçün bir tərəfdən strateji, digər tərəfdən isə

istehlak əhəmiyyəti daşıyan həssas və mühüm bir sahədir. Burada fasilələr yolverilməzdir, xidmətin nöqsanlı olması ciddi sosial proteslə qarşılaşa bilər və buna görə də dövlətlər əhalinin, əvvəldə bildirdiyimiz kimi həm də sənaye subyektlərinin, əslində digər bütün enerji istehlakçılarının maraqlarını təmin etməyə borcludur və bunlar dövlətin enerji siyasətinin, enerji təhlükəsizliyinin, ümumilikdə isə istisadi təhlükəsizliyinin əsasında yer almışdır; 2) Elektrik enerjisinin istehsalı və səmərəli, əlçatan şəkildə istehlakçılara çatdırılması prosesləri şəffaf, dürüst, proqnozlaşdırılan olmalıdır, həm də bu sahədə alternativlik təmin olunmalıdır. Yəni hər bir istehlakçı enerji təchizatçısı seçimində sərbəst olmalı, alternativ seçim etmək imkanı qazanmalıdır. Bunun üçün dövlət enerji müəssisələri ilə yanaşı, bazar iqtisadiyyatı əsasında inkişaf etmiş özəl enerji müəssisələri şəbəkəsinin yaradılması bu sahənin liberallaşdırılmasının əsası kimi qiymətləndirilməlidir; 3) Ölkədə enerji sektorunun idarə edilməsi, enerji tariflərinin formalaşdırılması, qiymətlərin müəyyənləşdirilməsi, enerji bölüşdürücü operatorların – dispetçer qovşaqlarının yaradılması prosesləri dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində təmin olunmalı və bunun üçün müvafiq fəaliyyət mühiti, bazar iqtisadiyyatı şərtlərini özündə ehtiva edən iqtisadi fəaliyyət mühiti olmalıdır; 4) İstehlaçıların tələblərinin yüksək səviyyədə ödənilməsi və ölkədə maksimum müştəri məmnunluğunun təmin olunması məqsədilə enerji sektorunda sağlam rəqabət mühiti formalaşdırılmalı, inhisarçılığın mənfi təsirinin azaldılması istiqamətində əlavə tədbirlər görülməlidir; 5) Dövlət tərəfindən enerji sektorunun fəaliyyətinin sabitləşdirilməsi mexanizmləri və tətbiq olunan dövlət dəstəyi alətləri stimullaşdırıcı xarakter daşımalı və sahənin bazar iqtisadiyyatı prinsipləri əsasında inkişafına təkan verməlidir.

Liberallaşdırma proseslərinin sürətləndirilməsi, bu istiqamətdə islahatların aparılması, fəaliyyət mexanizmlərinin tətbiq edilməsi məqsədilə, ilk növbədə dövlətin enerji sektoru üzrə siyasətinin və uzun müddətli dövr üçün hədəflərinin konseptual yanaşmaları müəyyənləşdirilməli, bununla bağlı fəaliyyət strategiyaları və ya konsepsiyaları hazırlanmalıdır. Eyni zamanda, hesab edirik ki, mühüm məsələlərdən biri də enerji sektorunun liberallaşdırılmasının hüquqi əsaslarının formalaşdırılmasıdır. Bunun üçün isə müvafiq ölkə qanunları hazırlanmalı və qəbul edilməlidir. Enerji sektoru kifayət qədər liberallaşan ölkələrin təcrübəsindən yanaşmaqla, idarəetmə sistemi və mexanizmləri hazırlanmalı, ölkədə elektrik enerjisinin istehsalı və bölüşdürülməsini tənzimləyən normalar müəyyənləşdirilməli, müvafiq şəbəkə yaradılmalıdır və s..

Qlobal çağırışlara uyğun şəkildə enerji sektorunun liberallaşdırılması üzrə bazar modelinin formalaşdırılması üzrə fəaliyyət istiqamətləri

Qlobal enerji təchizatındakı problemlər və enerji resurslarının bölüşdürülməsindəki çətinliklər, enerji istehsalının artırılması üçün lazım olan resursların tükənməsi, qlobal iqlim dəyişikliklərindən yaranan problemlər, tükənməkdə olan enerji resurslarından daha çox istifadə edilməsi nəticəsində istixana effekti yaradan qaz emissiyalarının artması, enerji itkilərinin çoxalması, alternativ və bərpa olunan enerji infrastrukturunun yaradılmasına yönəldilən investisiyaların məhdudluğu və s. səbəblərdən dövlətlər ölkənin enerji təhlükəsizliyinin gücləndirilməsi məqsədilə daha çox səylər göstərməli və tədbirlər görməlidirlər [6].

Qeyd olunan qlobal problemlər kontekstində istehlakçıların elektrik enerjisi ilə təchizatı məsələlərinin yüksək səviyyədə təşkil olunması, bununla bağlı işlək və səmərəli bazar iqtisadiyyatı mexanizmlərinin tətbiq edilməsi, bazar iqtisadiyyatı mühitinin yaradılması əsas şərtlər və mühüm fəaliyyət istiqamətləri kimi qiymətləndirilməlidir. Dövlətlər enerji sektorunda zəruri bazar iqtisadiyyatı infrastrukturunu və rəqabət mühitini formalaşdırmaqda qarşıya qoyulan vəzifələrə nail olmadıqda, hesab edirik ki, enerji istehsalı və təchizatında problemlərin yaranması qaçılmazdır [11]. Məsələn, belə bir şəraitdə elektrik enerjisi və onun bölüşdürlməsini həyata keçirən subyektlər arasında rəqabət mühiti şərtləri səmərəli olmaya bilər, nəticədə bazar iqtisadiyyatı mexanizmləri zərurət olduğu qədər məhsuldar işləməyəcəkdir. Digər tərəfdən, istehlakçıların enerji sektorunun liberallaşdırılmasından müsbət gözləntiləri baş tutmaya bilər [10]. Elektrik enerjisinin son istehlakçıları üçün əsas şərtlərdən və meyarlardan biri əvvəldə qeyd etdiyimiz kimi enerji tarifləri və onun qiymətləridir. Elektrik enerjisinin qiymətlərinin azalması üçün onun fasiləsiz və optimallaşdırılmış məsrəflərlə istehsalı ilə yanaşı, həm də maksimum səmərəli paylayıcı şəbəkənin

yaradılması, burada fəaliyyət göstərən elektrik enerjisi istehsalçısı və bölüşdürücü subyektləri arasında sağlam rəqabət mühitinin təmin olunmasıdır.

Ölkənin enerji sektorunun liberal bazar iqtisadiyyatı şərtləri əsasında inkişaf etdirilməsi və bununla bağlı tədbirlərin görülməsi kifayət qədər mürəkkəb məsələdir, eyni zamanada əsas istehlakçıların əhalinin olduğu baxımdan sosial-həssas məsələdir [13]. Dövlətin qarşısında bir tərəfdən, enerji sektorunun gücləndirilməsi və onun fasiləsiz şəkildə etibarlı olaraq fəaliyyət göstərməsi vəzifəsi dururs a, digər tərəfdən mühüm vəzifələrdən biri də bu sahənin səmərəliliyinin təmin olunmasıdır [9]. Məlumdur ki, təkcə dövlət qurumlarının və dövlət statuslu energetika müəssisələrinin fəaliyyəti hesabına bu vəzifələrin öhdəsindən gəlmək qeyri-mümkündür.

Hazırda dünyanın iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələrinin əksəriyyətində (Azərbaycan da bu sırada yer almışdır) dövlətin enerji sektorunda iştirakı və müdaxiləsi əhəmiyyətli səviyyədədir. Maraqlıdır ki, əksər dövlətlər islahatlar aparmağa risk etməkdə çətinlik çəkirlər və liberal enerji sektoru modelinin yaradılmasını ləngidirlər. Yəni, bununla dövlət enerji sektorunda sabitliyi təmin etdiyi qənaətindədir, başqa sözlə, bazar iqtisadiyyatı mexanizmlərinə keçməkdə tələsik addımlar atmağa meyilli deyillər. Lakin bunun mənfi cəhətləri daha çoxdur, belə ki, dünya iqtisadiyyatı yeni problemlər sırasında daha çox enerji təchizatı problemi ilə üz-üzədir, bu sektorda alternativliyin təmin olunması, alternativ enerji istehsalı infrastrukturunun yaradılması, özəl enerji şirkətlərinin təşkili və inkişaf etməsi, son nəticədə isə liberal bazar modelinin formalaşmasına imkan verən sağlam rəqabət mühitinin təşkil olunması gərəkdir.

Liberal bazar modelinin üstün amilləri və proqnozlaşdırılan nəticələri baxımından bir qrup məsələlər daha çox diqqət çəkir: 1) enerji sektorunun liberallaşdırılması və bu sahədə istehsalçı – bölüşdürücü şirkət və müəssisələrin sayının artırılması qaçılmaz bir zərurət kimi yaranmışdır; 2) enerji sektorunun səmərəli və daha etibarlı şəkildə fəaliyyət göstərməsi üçün dünya təcrübəsində müsbət baxımdan özünü təsdiq etmiş fəaliyyət mexanizmlərinin tətbiqi ön plana çıxmalıdır; 3) enerji sektorunun inkişafı dövlət dəstəyi mexanizmləri hesabına yox, ilk növbədə müasir dövrün çağırışlarına uyğun şəkildə yəni, bazar iqtisadiyyatı mexanizmlərinə - iqtisadi stimullaşdırıcı mexanizmlərə əsaslanmalıdır; 4) müasir enerji problemləri və bu sahədəki inkişaf tendensiyaları fəal şəkildə beynəlxalq əməkdaşlığı şərtləndirir və dünya təcrübəsinin dərindən öyrənilməsi, buna müvafiq şəkildə dövlətin enerji siyasətinin təkmilləşdirilməsi, liberal enerji modelinin hazırlanması və həyata keçirilməsi qarşıda duran mühüm vəzifələrdəndir və s. [5].

Yaxın perspektivdə enerji sektorunda baş verə biləcək qlobal problemlərin mənfi fəsadlarını daha geniş spektrdə proqnozlaşdırmaq çətindir. Amma, bir məsələnin mürəkkəbliyi və həssaslığa xüsusi yanaşmanı tələb edir. Enerji resurslarının qiymətlərinin artımı ilə əhalinin gəlirləri arasında qeyri-mütənasiblik, demək olar ki, əksər dünya ölkələri üçün xarakterikdir [2]. Bu baxımdan dövlətlərin siyasətində başlıca məsələlərdən biri enerji sektorunda sabit fəaliyyətin təmin olunması və bununla əlaqədar zəruri tədbirlərin görülməsidir. Başqa sözlə, ölkədə daha çox elektrik enerjisi istehsalına imkan verən istehsal və enerji infrastrukturunun yaradılması, rəqabət qabiliyyətli enerji istehsalçısı və bölüşdürücü müəssisələr şəbəkəsinin yaradılmasıdır. Burada başlıca iqtisadi stimullaşdırıcı mexanizmlər kimi bunlar daha çox diqqət çəkirlər: 1) enerji sektoru subyektinin mənfəətlə işləməsi və inkişaf etməsi üçün iqtisadi stimullaşdırıcı fəaliyyət mexanizmləri olmalıdır; 2) qeyd etdiyimiz kimi, heç bir əsaslı dövlət müdaxiləsi olmayan sərbəst enerji sektoru bazarı formalaşdırılmalı və sağlam rəqabət mühiti yaradılmalıdır; 3) dövlətin gördüyü tədbirlərin əsasında son enerji istehlakçılarının maraqları mütləq şəkildə nəzərə alınmalıdır, yəni dövlət əsas etibarı ilə elektrik enerjisi qiymətlərinin azalmasına imkan verən siyasət aparmalı, bürokratik tariftənzimləyici qurumları ləğv etməli və ya onların səlahiyyətləri məşvərətçi səviyyədən irəli getməməlidir; 4) özəl enerji sektoru subyektlərinin fəaliyyətinə əsassız müdaxilələrin minimuma endirilməsi və ya tamamilə yol verilməməsi mexanizmləri təmin olunmalıdır; 5) enerji istehsalı və istehlakını tənzimləyən hüquqi əsaslar, qanunlar, normativlər istehlakçılar arasında narazılıqla qarşılanmamalıdır, yəni istehlakyönlü tarif (qiymət) siyasətinin aparılması mütləq yanaşmalardan olmalıdır və s..

Liberal bazar iqtisadiyyatı modelinin formalaşdırılması və inkişaf etdirilməsi heç də bütün

iqtisadiyyat sahəsində asan başa gələn məsələ deyildir. Xüsusilə, təbii inhisar əsaslı xidmətlərin, o cümlədən elektrik enerjisi ilə təminatın infrastrukturunun yaradılması və bazar iqtisadiyyatına keçidinin təmin edilməsi üçün ilk növbədə bazar iqtisadiyyatı mexanizmlərinə və alətlərinə keçid təmin olunmalıdır. Bundan sonrakı proseslərdə isə elektrik enerjisinin istehsalı ilə bağlı kifayət qədər etibarlı bazanın formalaşdırılması və inkişaf etdirilməsi tələb olunur. Daha sonra istehsal olunan enerjinin istehlakçılara çatdırılmasını təmin edən müəssisələr şəbəkəsinin yaradılması və rentabelliyin proqnozlaşdırılan səviyyədə olması hədəfi ilə bu müəssisələrin bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdirilməsi mühiti yaradılmalıdır. Nəzərə almaq lazımdır ki, elektrik enerjisinin qiymətləri və onun istehlakına qoyulan müxtəlif tənizmləyici alətlər, məsələn, limitlərin müəyyənləşdirilməsi, qiymətlərin diferensiallaşması heç də bütün hallarda müştəri məmnunluğuna səbəb ola bilməz. Bu baxımdan enerji sektorunda müxtəlif statuslu bazar iştirakçılarının fəaliyyətinin təmin olunması vacib şərtlərdəndir. Digər tərəfdən, enereji sektoruna yüksələn vergi dərəcələrinin boğuculuğunun aradan qaldırılması və bu istiqamətdə münasibətlərin daha çox stimullaşdırıcı alətlər əsasında formalaşdırılması səmərə verə bilər.

Qeyd edək ki, bir sıra postsovet respublikalarında elektroenergetika sahəsində islahatlar keçirilməsi prosesləri diqqət mərkəzindədir. Məsələn, Belarusda elektroenergetika sahəsində özəl sektorun inkişafı konsepsiyası irəli sürülür, amma onun reallaşdırılması hələ ki, real görünmür [3]. Qazaxıstanda isə iqtisadiyyatın ümumilikdə liberallaşdırılmasının dərinləşdirilməsi istiqamətlərində enerji sektorunun liberallaşdırılması da əsas hədəflərdən hesab olunur [7]. Bu amillər baxımından ölkəmizdə də son vaxtlar mütəmadi olaraq elektroenergetika sahəsində bazar iqtisadiyyatının inkişafına çağırışlar diqqət çəkir [8]. Hazırda ölkəmizdə alternativ və bərpa olunan elektrik enerjisi infrastrukturunun yaradılmasında özəl xarici investorlar və şirkətlər iştirak edirlər və layihələrin icrasına başlanılmışdır. Buna görə də yerli şirkətlərin, ümumilikdə isə özəl sektorun elektroenergetika sahəsində daha fəal iştirakına imkan verən qanunvericiliyin formalaşdırılması və investisiya mühitinin cəlbediciliyi təmin edilməlidir.

Nəticə

Beləliklə, enerji sektorunun qlobal transformasiyalarından qaynaqlanan inkişaf tendensiyaları və enerji sektorunun liberallaşdırılması ilə bağlı yaranan problemlər əsas götürülməklə, enerji sektorunda müasir dövrün tələblərinə cavab verən bazar modelinin təşkili dövrümüzün tələblərindən biri kimi ortaya çıxmışdır. Bu reallığı inkar etmək, əslində qlobal enerji bazarında baş verən proseslərə biganə qalmaq, ildən-ilə artan enerji problemlərinin, o cümlədən əhalinin enerji resurslarına olan tələbatının müştəri məmnunluğu səviyyəsində ödənilməsinə soyuq münasibətin ifadəsi kimi qiymətləndirilə bilər. Hesab edirik ki, dövlətlər enerji sektorunun iqtisadi bazar mexanizmləri əsasında inkişaf etməsi ilə bağlı reallıqları dəyərləndirməli və adekvat tədbirlər görməlidirlər. Eyni zamanda, enerji resurslarına olan tələbatın fasiləsiz şəkildə yerinə yetirilməsi, alternativ enerji istehsalı infrastrukturunun yaradılması, ölkənin ümumi enerji istehsalı strukturunda bərpa olunan elektrik enerjisinin xüsusi çəkisinin artırılması istiqamətlərində daha dərin və fundamental tədqiqatlar aparılmalıdır.

Bu qeyd olunanlar baxımından bir qrup məsələləri ümumiləşdirmək mümkündür:

- müasir qlobal çağırışlar baxımından, dünya dövlətlərində enerji sektorunun liberallaşdırılması və bazar modelinin yaradılması həllini gözləyən mürəkkəb problemlərdəndir, amma, bu problemin həlli yolunun tapılması və islahatların aparılması qaçılmaz bir prosesdir;
- ölkənin enerji sektorunun liberallaşdırılması və sabit enerji istehsalı infrastrukturunun yaradılması, əhalinin və digər istehlakçıların fasiləsiz, etibarlı şəkildə elektrik enerjisi ilə təmin edilməsi proseslərində dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi daha çox səmərə verə bilər;
- ölkədə enerji sektorunun bazar iqtisadiyyatı prinsipləri əsasında inkişafının təmin olunması üçün bu sahədə yaxın və uzaq perspektivləri özündə ehtiva edən fəaliyyət strategiyasının hazırlanması və tələb olunan tədbirlərin mərhələlər şəklində həyata keçirilməsi daha məqsədəuyğundur;
- enerji sektorunda islahatların aparılması mexanizmləri hazırlanarkən əhalinin həssas təbəqələrinin maddi vəziyyətinin nəzərə alınması, ölkədə mövcud sosial-iqtisadi durumun obyektiv ola-

raq dəyərləndirilməsi, ümumilikdə əhalinin gəlirlərinin enerji tarifləri ilə müqayisəsinin aparılması, sosial gərginliyə səbəb ola biləcək tarif siyasətinə yol verilməməsi xüsusi diqqət mərkəzində saxlanılmalıdır;

- enerji sektorunun liberallaşdırılması və daha qısa dövr ərzində bu sektorda bazar modelinin yaradılması üçün sağlam rəqabət mühitinin formalaşdırılması, qanunvericilik aktlarının qəbul edilməsi, hüquqi əsasların təkmilləşdirilməsi, islahatların tarazlı və səmərəli şəkildə aparılmasına imkan verən fəaliyyət mexanizmlərinin hazırlanması və idarəetmə strukturlarının təşkili mütləq şəkildə nəzərə alınmalıdır və s..

ƏDƏBİYYAT

1. Yaşıl inkişaf: Enerji səmərəliliyi və alternativ mənbələr. Azərbaycan Respublikasının Prezidenti Yanında Strateji Araşdırmalar Mərkəzi. – Bakı. – 2014. – 144 s.
2. Анализ влияния цен и инвестиций в электроэнергетике на развитие экономики России и регионов. Докл. к XXIII Ясинской (Апрельской) междунар. науч. конф. по проблемам развития экономики и общества, Москва, 2022 г. / Е.В. Яркин (науч. ред.); И.А. Долматов, С.В. Сасим, М.А. Панова и др.; Нац. исслед. ун-т «Высшая школа экономики». — Москва: Изд. дом Высшей школы экономики, 2022. — 41 с.
3. Вертай, С.П., Хмельницкий В.И. Реформирование и интеграция электроэнергетической отрасли Республики Беларусь. // БІЗНЕСІНФОРМ № 8, 2018. – с. 38-43.
4. Гительман, Л.Д., Ратников, Б.Е. Энергетический бизнес. Москва, Дело, 2006.–600 с.
5. Кавешников, Н.Ю. Развитие внешней энергетической политики Европейского союза// Вестник МГИМО-Университета. - Москва, 2013. № 4. - С. 82-91.
6. Лисин, Е.М. Методология обеспечения энергетической безопасности при многоуровневом управлении территориальными общеэнергетическими системами. Автореферат дис. на соискание ученой степени доктора экономических наук. Москва – 2018. – 40 с.
7. О мерах по либерализации экономики 10 мая 2024 года. Указ Президента Республики Казахстан. Астана, Акорда, 8 мая 2024 года, №542.
8. Остапенко, Е. Электроэнергетика Азербайджана на пути к рыночной модели. https://euneighbourseast.eu/ru/news/stories/elektroenergetika-azerbajdzhana-na-puti-k-rynochnoj-modeli/.
9. Стратегия деятельности в секторе энергетики. Документ Европейского Банка Реконструкции и Развития. Утверждена на заседании Совета директоров 10 декабря 2013 года.
10. Троицкий П. Либерализация и координация энергетического рынка ЕС // Вестник Института экономики Российской академии наук. 2009. №3- с.1-4.
11. Шафиев, Р.М. Формирование энергетического и финансового рынка ЕАЭС / Р.М.Шафиев // Россия: тенденции и перспективы развития. Ежегодник. Вып. 11. / РАН. ИНИОН. Отд. научн. сотрудничества; Отв. ред. В.И. Герасимов - Москва, 2016. - Ч. 1. - с. 207 – 210.
12. Bhattacharyya, S.C. Energy Economics Concepts, Issues, Markets and Governance Springer London Dordrecht Heidelberg New York, Springer-Verlag London Limited, – 2011. – 673 s.
13. Jones, Ch.W., Kettlewell W.J. The internal energy market. Deventer: Claeys & Casteels Publishing, 2021, 1595 p.

Ниджат Заур оглы Абдурахманов
Докторант Азербайджанского Университета Кооперации,
E-mail: nicatabd@gmail.com

Вопросы либерализации энергетического сектора и создания рыночной модели

Резюме

Цель исследования - изучить процессы либерализации энергетического сектора и создания рыночной модели в современную эпоху и сделать обобщения по данному направлению.

Методология исследования - основана на методах анализа, синтеза, сравнительного

анализа и обобщения. Наряду с этим в работе ссылалось на научные работы ученых, проводивших исследования по проблемам либерализации энергетического сектора.

Практическое значение исследования - заключается в организации программ и определении мер развития реформ энергетического сектора на основе рыночной экономики в условиях современных глобальных давлений.

Результаты исследования - в текущий период и в перспективе имеются возможности использования научных положений и предложений, содержащихся в статье при подготовке механизмов либерализации энергетического сектора.

Оригинальность и научная новизна исследования - можно отметить, что в условиях глобальных трансформаций неизбежны концептуальные подходы к либерализации энергетического сектора и созданию его рыночной модели, а также важность проведения реформ в этих направлениях обоснована необходимость разработки и внедрения новых механизмов действий. Приведены преимущества развития энергетической отрасли на основе принципов рыночной экономики и подготовлены предложения и рекомендации по рассматриваемым проблемам.

Ключевые слова: энергетика, энергетический сектор, либерализация энергетического сектора, создание рыночной модели, рыночная экономика, рыночная модель энергетического сектора, эффективность энергетического сектора.

Nijat Zaur Abdurahmanov
Doctoral student of Azerbaijan Cooperation University,
E-mail: nicatabd@gmail.com

Issues of liberalizing the energy sector and creating a market model

Summary

The purpose of the research is to examine the processes of liberalization of energy sector and creation of market model in the modern era and make generalizations in this direction.

Research methodology is based on the methods of analysis, synthesis, comparative analysis and generalization. Along with this, the work referred to the scientific works of scientists who conducted research on the problems of liberalization of the energy sector.

The practical significance of the research is to organize programs and identify measures for the development of energy sector reforms on the basis of market economy in the current global pressures.

The results of the research - in the current period and in the future there are opportunities to use scientific provisions and proposals contained in the article in the preparation of mechanisms for the liberalization of the energy sector.

The originality and scientific novelty of the research - it can be noted that in the conditions of global transformations inevitable conceptual approaches to the liberalization of the energy sector and the creation of its market model, as well as the importance of reforms in these directions substantiated the need for the development and implementation of new mechanisms of action. Advantages of the energy sector development on the basis of market economy principles are given and proposals and recommendations on the problems under consideration are prepared.

Key words: energy, energy sector, liberalization of the energy sector, creation of a market model, market economy, market model of the energy sector, efficiency of the energy sector.